# Rəcəb Tayyib Ərdoğanın Nobel sülh mükafatına namizədliyi təklif edilib

Türkmənistanın keçmiş prezidenti, ölkənin Xalq Şurasının sədri Qurbanqulu Berdiməhəmmədov Türk Dövlətləri Təşkilatının (TDT) Ankarada keçirilən sammitində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Nobel sülh mükafatına namizədliyini irəli sürməyi təklif edib.



Prezident Rəcəb Tayyib Ərdoğanın görkəmli şəxsiyyət və dünya səviyyəli siyasətçi olduğunu vurğulayan türkmən xalqının liderinin dediyinə görə, Türkiyə rəhbəri bütün müsəlman xalqları üçün sülhün təmin edilməsi, həmçinin regional və qlobal miqyasda təhlükəsiz və davamlı inkişaf naminə çox iş görür: "Bunun əsasında Türkiyə Prezidentinin Nobel sülh mükafatına namizədliyinin irəli sürülməsi təklif edilir və biz bütün müvafiq təklifləri tam dəstəkləyirik. O, bu beynəlxalq mükafata layiq liderdir".

Q. Berdiməhəmmədov həmçinin qeyd edib ki, R.T.Ərdoğan XXI əsrdə bu mükafata layiq görülən islam dünyası ölkələrinin dövlət və hökumət başçıları arasında birinci ola bilər.

Xatırladaq ki, yeni il ərəfəsində də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Nobel sülh mükafatına namizədliyi irəli sürülüb.

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop bildirib ki, o, Ərdoğanın bu nüfuzlu mükafata Rusiya və Ukrayna arasında sülh səylərinə verdiyi töhfəyə görə namizəd göstərilməsinə təşəbbüs göstərib.

Bu günlərdə Vladimir Zelenski və Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub və Türkiyə lideri növbəti dəfə sülhə töhfə verməyə hazır olduğunu bildirib.

Bu arada, Rusiya Prezidenti Vladimir Putinin mətbuat katibi Dmitri Peskov Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Nobel sülh mükafatına mümkün namizədliyini şərh edib. Kremlin sözçüsü bununla bağlı deyib: "Əlbəttə, biz cənab Ərdoğanın səylərini, sülhməramlı fəaliyyətini, vasitəçilik xidmətləri göstərmək cəhdlərini və ikitərəfli Rusiya-Türkiyə münasibətlərinin inkişafına münasibətini yüksək qiymətləndiririk" .

Nobel sülh mükafatı sülh sahəsində nailiyyətlərə görə Nobel Fondu tərəfindən hər il verilən mötəbər mükafatdır və Alfred Nobelin vəsiyyətində təsis etdiyi beş mükafatdan biridir.

Nobel Komitəsinin qaydalarına görə, hazırkı dövlət başçıları, hökumət və milli parlamentlərin üzvləri namizəd irəli sürmək hüququna malikdirlər. Həmçinin ötən illərin laureatları, hüquq və humanitar elmlər üzrə professorlar, beynəlxalq məhkəmələrin üzvləri, Nobel Komitəsinin indiki və keçmiş üzvləri sülh mükafatına öz namizədlərini irəli sürə bilərlər.

Nobel sülh mükafatı 1901-ci ildən bəri hər il verilir.

Mükafat təqdim edildikdə, yalnız qaliblərin adları məlum olur. Bütün digər nominantların adları və Nobel Komitəsinin üzvlərinin rəyləri 50 il ərzində gizli saxlanılır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***